# Uşaqlar üçün Müqəddəs Kitab

təqdim edir

# Əkinçi və Toxum



Müəllif: Edward Hughes
İllüstrasiya edən: M. Maillot; Lazarus
Uyğunlaşdıran: E. Frischbutter; Sarah S.
Tərcümə edən: Günay Əsədova
Alastair Paterson
Təqdim edən: Bible for Children
www.M1914.org

BFC
PO Box 3
Winnipeg, MB R3C 2G1
Canada

©2020 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini çıxarda bilmək hüququna maliksiniz.



Bir gün İsa göl sahilində öyrədirdi. Ona qulaq asmaq üçün çoxlu adam toplaşmışdı.

İzdiham daha da artdı. İsa nə etməli idi?




Yaxınlıqda bir qayıq görərək, İsa o qayığa mindi.  İndi İsa insanları görə bilərdi və onlar da İsanı görə və eşidə bilərdilər.
3


İsa insanlara Allah haqqında öyrədən adi şeylərdən ibrətli hekayələr – məsəllər söyləməyə başladı.
4


“Əkinçi öz tarlasında toxum səpir”.  İsanın hekayəsi şəkilli hekayəyə bənzəyirdi.
5


İnsanlar əkinçinin necə işlədiyini təsvir edə bilərdilər – onlar bunu dəfələrlə görüblər.
6


Səpilən toxumlardan bəziləri yol kənarına düşdü.  Quşlar onları dənləmək üçün cəld aşağı hücum etdi.
7


Bəzi toxumlar tarlanın daşlıq hissələrinə düşdü.  O bitkilər zəif oldu.  Qızmar günəş onları qurutdu, çünki onlar torpağın dərinliyinə kök sala bilməmişdi.
8


Digər toxumlar tikanlar arasına düşdü. Onlar məhsul vermədi. Tikanlar günəşin və yağışın qarşısını alaraq, cavan bitkiləri bürüdü.
9


Toxumların qalan hissəsi yaxşı torpağa düşdü. Vaxt keçdikdən sonra cücərtilər yeni bol taxıl verərək, sağlam bitkilər oldu. Əkinçi yəqin ki, çox xoşbəxt idi.
10


Hekayə bitəndən sonra şagirdlər İsanın yanına gəldilər. Onlar Ondan soruşdular: “Nə üçün məsəllərlə öyrədirsən?”
11


İsa dedi ki, əgər adamlar Allahı həqiqətən sevirlərsə, məsəllər onlara Allah haqqında başa düşmələrinə kömək edir. Allahı sevməyənlər məsəlləri başa düşə bilməzlər.
12


İsa məsəllərin mənasını izah etdi. O dedi ki, toxum Allahın Sözüdür. Yol kənarına düşən toxum Allahın Sözünü eşidən,
lakin onu başa düşməyən adam kimidir.
13


Bəzi adamlar Allahın Sözünü cəld qəbul edirlər. Onlar daşlıq yerə düşən toxumlar kimidir. Amma Allahı sevdiyinə görə bir kimsə onlara qəzəblənir, yaxud vəziyyəti mürəkkəbləşdirirsə, kədərli şey baş verir.
14

İsanı sevincə izləməyə başlayan həmin bu adamlar dönür və Allahın Sözünə itaət etmirlər. Onlar Allahın ardınca getmək üçün çətinlik çəkmək istəmirlər.



15

Məsəldəki tikanlar insanların həyatındakı dünyəvi qayğılar və pula olan sevgi kimidir. Onlar daha çox pul və digər şeylər qazanmaq üçün o qədər məşğuldular ki, Allahı həyatlarından kənarda saxlayırlar.



16

Lakin yaxşı torpağa düşən və yaxşı məhsul gətirən toxumlar Allahın Sözünün insan ürəyinə daxil olması və insanın həyatını dəyişməsi kimidir. Bu insanlar Allaha xidmət və ehtiram edirlər.



17

Adamlar dağılışıb getmək istəmirdi. Çoxları Allahın ardınca getmək və Onu razı salmaq istəyirdi. İsanın məsəlləri onlara Allaha necə itaət etməyi başa düşməyə kömək etdi.



18

Əkinçi və Toxum

Allahın Sözü, Müqəddəs Kitabdan olan bir hekayədir

Matta 13

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130

19




43

60

20

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan. Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim. Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et. Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış! Yəhya 3:16**